


# Dünya birinciləri Bakıda yarışır

## Planetin ən məşhur 22 pilotu 11 komandada mübarizə aparacaq

Bütün avtomobil həvəskarlarının böyük həyəcanla gözlədiyi "Formula-1" Avropa Qran-prisinin Bakı mərhələsinin başlamasına sayılı günlər qalıb. Yarışı izləmək üçün paytaxtımıza gələcək sürət həvəskarları azarkeşi olduqları pilotları yaxından izləmək şansına malik olacaqlar. Qeyd edək ki, cari mövsümdəki yarışlarda 5 dünya çempionu pilot çıxış edir. Bunlar Sebastyan Fettel, Luis Hamilton, Fernando Alonso, Censon Batn və Kimi Raykkonendir.

Bakıda yarışacaq komandalar və onların dünyaca məşhur pilotları ilə tanış olaq.

### "Sahara Force India F1 Team" komandası

2008-ci ildən etibarən "Formula-1"də iştirak edir. Mərkəzi qərargahı Böyük Britaniyanın Silverstoun şəhərində yerləşən bu komandaya Vijay Mallya başçılıq edir. Texniki heyətin rəhbəri Endryu Qrindir. Komandanın builki mövsümə qədər göstərdiyi ən yaxşı nəticə yarışların birində 2-ci yerə yiyələnməsidir.



**Pilotlar:**

**Serxio Perez:** 2011-ci ildən etibarən "Formula-1"də iştirak edir. "Formula-1" karyerasına "Sauber" komandasında başlayan meksikalı pilot 2013-cü ildə "McLaren" komandasına keçib. Sadəcə bir mövsüm bu komandada çıxış edən Serxio Perez 2014-cü ildən etibarən karyerasını "Force India"da davam etdirir. O, bu mövsümə qədər 95 yarışda iştirak edib və ən yaxşı nəticəsi 2 dəfə yarışı ikinci olaraq başa vurmasıdır.



**Niko Hulkenberq:** "Formula-1" karyerasına 2010-cu ildə Bəhreyn Qran-prisi ilə başlayıb. Həmin il "Williams Cosworth" komandasında çıxış edən almaniyalı pilot növbəti il "Force India"ya 3-cü pilot olaraq transfer olunub. 2012-ci il mövsümündə əsas pilot olaraq bu komanda tərkibində bir mövsüm yarışan Niko 2013-cü ildə "Sauber"ə keçib. Almaniyalı pilot növbəti il "Force India" ilə müqavilə imzalayıb və həmin ildən etibarən yarışlara bu komandanın tərkibində qatılır. Niko Hulkenberq builki mövsümə qədər 96 dəfə qran-pri yarışlarında iştirak edib və ən yaxşı nəticəsi iki dəfə yarışı 4-cü yerdə bitirməsidir.

### "Sauber F1 Team" komandası

1993-cü ildən etibarən "Formula-1"də iştirak edir. Mərkəzi qərargahı İsveçrənin Hinvil şəhərində yerləşən bu komandaya Monişa Kaltenborn başçılıq edir. Sauber komandasında texniki heyətin rəhbəri Mark Smitdir. Bu komandanın 2016-cı ilədək olan bütün mövsümlər ərzindəki ən böyük uğuru bir dəfə yarışı ən öndə bitirməsidir.



**Pilotlar:**

**Markus Erikson:** "Formula-1"də debütünü 2014-cü il mövsümünün ilk yarışı olan Avstraliya Qran-prisində "Caterham-Renault" komandasının tərkibində edib. İsveçli pilot 2015-ci ildə "Sauber" komandasına transfer olunub. Markus Erikson bu mövsümə qədər 35 yarışda iştirak edib və onun göstərdiyi ən yaxşı nəticə bir dəfə yarışı 8-ci yerdə başa vurmasıdır.



**Felipe Nasr:** "Formula-1" karyerasına 2015-ci il mövsümünün ilk yarışı olan Avstraliya Qran-prisi ilə start verib. "Sauber" komandasında çıxış edən braziliyalı pilot builki mövsümə qədər 19 qran-pridə iştirak edib. Felipe Nasrın ötən mövsümdə göstərdiyi ən yaxşı nəticə bir dəfə yarışı 5-ci yerdə başa vurmasıdır.

### "McLaren Honda" komandası

"Formula-1"də böyük tarixi var. Bu komanda 1966-cı ildən etibarən "F1" yarışlarında iştirak edir. Mərkəzi qərargahı Böyük Britaniyanın Vokinq şəhərində yerləşən komandaya Erik Boulier başçılıq edir. "McLaren" komandasının texniki heyətinin rəhbəri Tim Qossdur. Komanda builki mövsümə qədər 8 dəfə Mühəndislər Kubokunun sahibi olub.



**Pilotlar:**

**Fernando Alonso:** İspaniyalı pilot "Formula-1"də debütünü 2001-ci il mövsümünün birinci yarışı olan Avstraliya Qran-prisində "Minardi European" komandasında edib. O, indiyədək yarışlarda müxtəlif komandalarda çıxış edib. Belə ki, 2003-2006-cı illər arasında "Renault"un, 2007-ci ildə "McLaren"in, 2008-2009-cu illərdə yenidən "Renault"un və 2010-2014-cü illərdə "Ferrari"nin sürücüsü olan Alonso 2015-ci ildən etibarən yenidən "McLaren" komandasının tərkibində çıxış edir. 2005-ci və 2006-cı illərdə ardıcıl iki dəfə dünya çempionu olan Fernando Alonso bu mövsümə qədər 254 yarışda iştirak edib. Bu yarışların 32-də qələbə qazanıb.



**Censon Batn:** Debütünü 2000-ci il mövsümünün ilk yarışı olan Avstraliya Qran-prisində "Williams BMW" komandasında edib. 2001-ci ildə "Benetton"un, 2002-ci ildə "Renault"un, 2003-2005-ci illərdə "BAR"ın, 2006-2008-ci illərdə "Honda"nın və 2009-cu ildə "Brawn GP"nin tərkibində olan britaniyalı pilot 2010-cu ildən etibarən "McLaren" komandasında çıxış edir. Censon Batn bu mövsümə qədər 287 yarışda iştirak edib. 15 yarışda qalib gələn Censon 2009-cu ildə dünya çempionu tituluna sahib olub.

### "Mercedes" komandası

1954-cü ildən etibarən "Formula-1"də iştirak edir. Komandanın mərkəzi ofisi Böyük Britaniyanın Brekli şəhərində yerləşir və komandaya Toto Volf rəhbərlik edir. Texniki heyətin rəhbəri isə Padi Loudur.



**Pilotlar:**

**Luis Hamilton:** Böyük britaniyalı pilot üçqat dünya çempionudur. 2008-ci, 2014-cü və 2015-ci illərdə titula yiyələnib. 2007-ci il Avstraliya Qran-prisində "McLaren" komandasının tərkibində debüt edib. 2013-cü ildə "Mercedes" komandasına keçib. Bu mövsümədək 167 qran-pridə iştirak edib və 43 qələbə qazanıb.



**Niko Rosberq:** Almaniyalı pilot 1982-ci ildə "Formula-1" üzrə dünya çempionu olmuş Keke Rosberqin oğludur. "Formula-1"də debütünü 2006-cı ildə Bəhreyn Qran-prisində "Villiams Kosvorts" komandasının tərkibində edib. 2014-2015 ci illərin vitse-çempionu, həmçinin 2014-cü il poul kubokunun qalibidir. Bu mövsümədək 185 qran-pridə iştirak edib və 14 dəfə qalib gəlib.

### "Scuderia Ferrari" komandası

"Formula-1"in keçirildiyi tarixdən etibarən iştirak edən yeganə komandadır. Komandanın mərkəzi ofisi İtaliyanın Maranello şəhərində yerləşir. "Ferrari" komandasına Maurizio Arrivabene başçılıq edir. Texniki heyətin rəhbəri isə Ceyms Alisondur. "Ferrari" Mühəndislər Kubokunu ən çox qazanmış komandadır - 16 dəfə.



**Pilotlar:**

**Sebastyan Fettel:** Alman pilot "Formula-1"də debütünü 2007-ci ildə keçirilmiş ABŞ Qran-prisində "BMW Sauber" komandasının tərkibində edib. Həmin il "Scuderia Toro Rosso" komandasına keçib. Sebastyan Fettel 2009-2014-cü illər ərzində "Red Bull Racing" komandasının tərkibində çıxış edib və 2010-2013-cü illərdə ardıcıl 4 dəfə dünya çempionu olub. 2015-ci ildən etibarən "Ferrari" komandasında mübarizə aparır. Alman pilot bu mövsümə qədər 158 yarışda iştirak edib və 42 qələbə qazanıb.



**Kimi Raykkonen:** Finlandiyalı pilot Kimi Raykkonen "Formula-1"də debütünü 2001-ci ildə keçirilmiş Avstraliya Qran-prisində "Sauber Petronas" komandasının tərkibində edib. O, 2002-ci ildə "McLaren Mercedes" komandasına qoşulub. Kimi Raykkonen 2007-2009-cu illər ərzində "Ferrari" komandasında çıxış edib və 2007-ci ildə dünya çempionu tituluna sahib olub. 2010-2011-ci illərdə isə "Formula-1"ə fasilə verib. 2014-cü ildən etibarən "Formula-1"də "Ferrari" komandasını təmsil edir. Finlandiyalı pilot bu mövsümə qədər 232 yarışda iştirak edib və bu yarışlardan 20-də qalib gələn təcrübəli sürücü 80 dəfə podiuma çıxıb.

### "Red Bull Racing" komandası

"Formula-1"də 2005-ci ildən etibarən iştirak edir. Mərkəzi qərargahı Böyük Britaniyanın Milton Keynes şəhərində yerləşən komandaya Kristian Horner başçılıq edir. Texniki heyətin rəhbəri Adrian Nyuidir. Bu mövsümədək komanda "Formula-1"də 4 dəfə Mühəndislər Kubokunun sahibi olub.



**Pilotlar:**

**Daniel Rikkardo:** Avstraliyalı pilot "Formula-1" karyerasına 2011-ci ildə Böyük Britaniya Qran-prisində "HRT Cosworth" komandasının pilotu olaraq başlayıb. 2012-ci ildə buradan "Toro Rosso"ya transfer olunub və 2014-cü ildən etibarən "Red Bull" komandasının tərkibində çıxış edir. Daniel Rikkardo bu mövsümə qədər 88 yarışda iştirak edib və bunlardan 3-də ən yüksək nəticə göstərib.



**Maks Ferstappen:** Maks Ferstappen "Formula-1"də debütünü 2015-ci il mövsümünün ilk yarışı olan Avstraliya Qran-prisində "Toro Rosso" komandasının tərkibində edib. Yaşca "Formula-1" pilotlarının ən kiçiyi olan Maks Ferstappen bu mövsümə qədər 19 yarışda çıxış edib. Hollandiyalı pilotun ötən mövsümdə göstərdiyi ən böyük nəticə yarışı iki dəfə 4-cü yerdə başa vurmasıdır.

### "Williams Martini Racing" komandası

1978-ci ildən etibarən "Formula-1" yarışlarında iştirak edir. Frank Uilyamsın rəhbərlik etdiyi bu komandanın mərkəzi qərargahı Böyük Britaniyanın Qrov şəhərində yerləşir. Komandada texniki heyətin başçısı Pat Simondsdur. Mühəndislər Kubokunun doqquzqat qalibidir.



**Pilotlar:**

**Felipe Massa:** Braziliyalı pilot Felipe Massa "Formula-1" karyerasına 2002-ci ildə keçirilmiş Avstraliya Qran-prisində "Sauber Petronas" komandasının tərkibində başlayıb. O, 2006-cı ildə "Ferrari" komandasına keçib və 2013-cü ilədək burada yarışan braziliyalı pilot 2014-cü ildən etibarən "Williams"da çıxış edir. O, builki mövsümə qədər 230 yarışda iştirak edib, bu yarışlardan 11-də ən yüksək nəticə göstərib.



**Valteri Bottas:** Finlandiyalı pilot Valteri Bottas "Formula-1" karyerasına 2013-cü ildə başlayıb. O, ilk dəfə Avstraliya Qran-prisində "Williams Renault" komandasının tərkibində çıxış edib. Son üç mövsüm ərzində Valteri Bottas 57 yarışda iştirak edib. Onun ən böyük uğuru iki dəfə 2-ci yeri əldə etməsidir.

### "Haas F1 Team" komandası

**"Formula-1" yarışlarında ilk dəfə bu il çıxış edir. Mərkəzi qərargahı ABŞ-ın Kannapolis şəhərində yerləşən komandaya Quenter Stayner başçılıq edir.**



**Pilotlar:**

**Romain Qrosjan:** "Formula-1"də ilk dəfə 2009-cu ildə Valensiyada keçirilən Avropa Qran-prisində "Renault" komandasının tərkibində iştirak edib. Həmin ildən sonra "F1" yarışlarına fasilə verən fransalı pilot 2012-ci ildə yenidən çempionata qayıdıb. Romain Qrojan 2012-2015-ci illər ərzində "Lotus" komandasının tərkibində pilot olub. Fransalı pilot bu mövsüm "Formula-1"in yeni komandası olan "Haas"ın şərəfini qoruyacaq. Romain bu mövsümə qədər 83 yarışda iştirak edib və ən yaxşı nəticəsi iki dəfə yarışı 2-ci yerdə başa vurmasıdır.



**Esteban Qutierez:** "Formula-1"də 2013-cü ildə Avstraliyada debüt edib. Esteban 2010-2012-ci illər ərzində "Sauber" komandasında test və ehtiyat pilotu kimi fəaliyyət göstərib. 2013-2014-cü illərdə "Sauber"in əsas pilotu olan meksikalı 2015-ci ildə "Ferrari"nin ehtiyat sürücüsü kimi "Formula-1"də iştirakını davam etdirib. O, bu mövsüm üçün "Haas" komandası ilə müqavilə imzalayıb. Onun göstərdiyi ən yüksək nəticə bir dəfə yarışı 7-ci yerdə başa vurmasıdır.

### "Renault Sport Formula 1 Team" komandası

1977-ci ildən etibarən "Formula-1" yarışlarında iştirak edir. Mərkəzi qərargahı Böyük Britaniyanın Enston şəhərində yerləşən bu komandaya Frederik Vasseur başçılıq edir. "Renault"un texniki heyətinin rəhbəri Bob Belldir. Komandanın builki mövsümə qədər göstərdiyi ən böyük nəticə Fernando Alonso ilə birlikdə iki dəfə Mühəndislər Kubokunda 1-ci yeri qazanmasıdır.



**Pilotlar:**

**Kevin Maqnussen:** "Formula-1" karyerasına 2014-cü il mövsümünün ilk yarışı olan Avstraliya Qran-prisində "McLaren" komandası ilə başlayıb. Danimarkalı pilot 2015-ci ildə mövsümün sadəcə birinci yarışında iştirak edib və daha sonra həmin il "McLaren"də ehtiyat pilotu olaraq yer alıb. Builki mövsümə qədər Kevin 20 dəfə qran-pri yarışında iştirak edib. Onun bu yarışlarda göstərdiyi ən böyük uğur yarışı bir dəfə 2-ci yerdə başa vurmasıdır.



**Colion Palmer:** "Formula-1"də ilk dəfə 2014-cü ildə "Force India" komandasının test pilotu olaraq yer alıb. 2015-ci ildə isə o, "Lotus" komandasında ehtiyat pilotu kimi çalışıb. Britaniyalı pilot 2016-cı il mövsümündə ilk dəfə yarışa "Renault" komandasının tərkibində çıxır.

### "Scuderia Toro Rosso" komandası

2006-cı ildən etibarən "Formula-1" yarışlarında iştirak edir. Mərkəzi qərargahı İtaliyanın Faenza şəhərində yerləşən bu komandaya Franz Tost başçılıq edir. Komandanın texniki həyətinin rəhbəri Ceyms Keydir. Komandanın ən böyük uğuru 2008-ci ildə İtaliya Qran-prisində sürücüsü Sebastyan Fettelin qalib gəlməsidir.



**Pilotlar:**

**Daniil Kvyat:** "Formula-1"də debütünü 2014-cü il mövsümünün ilk yarışı olan Avstraliya Qran-prisində "Scuderia Toro Rosso" komandasının tərkibində edib. Rusiyalı pilot 2015-ci ildən etibarən "Red Bull" komandasında çıxış edib. 2016-cı ilin may ayından "Scuderia Toro Rosso"da çıxış edir. Bu mövsümə qədər 38 yarışda iştirak edib və ən yüksək nəticə bir dəfə yarışı ikinci yerdə başa vurmasıdır.



**Karlos Saynz:** "Formula-1"də debütünü 2015-ci il mövsümünün ilk yarışı olan Avstraliya Qran-prisində "Toro Rosso" komandasının tərkibində edib. Həmin mövsümdə ispaniyalı pilot 19 yarışa çıxıb və onun göstərdiyi ən böyük nəticə bir dəfə yarışı 7-ci yerdə başa vurmasıdır.

### "Manor Racing" komandası

2010-cu ildən etibarən "Formula-1" yarışında iştirak edir. "F1" yarışlarına qatılanda komanda "Virgin Racing" adlanırdı və daha sonra komandanın adı "Marussia" ilə əvəz olunmuşdu. Mərkəzi qərargahı Böyük Britaniyanın Benböri şəhərində yerləşən komandaya Deyv Rayn başçılıq edir. Komandanın texniki heyətinin rəhbəri Con Makkuilyamdır. Komandanın bu mövsümə qədər olan ən böyük uğuru bir dəfə yarışı 9-cu yerdə bitirməsidir.



**Pilotlar:**

**Paskal Verlayn:** "Formula-1" karyerası 2014-cü ildə başlayıb. O, həmin il "Mercedes" komandası ilə müqavilə imzalayaraq test pilotu olub. İki il test pilotu kimi "Formula-1"də iştirak edən almaniyalı bu mövsüm "Manor Racing" komandasının əsas pilotu kimi çıxış edir.



**Rio Haryanto:** "Formula-1" karyerası 2010-cu ildə başlayıb. O, həmin il "Marussia Virgin Racing" komandasının test pilotu olub. Rio Haryanto 2016-cı il mövsümündə "Manor Racing" komandasında çıxış edir. O, həmçinin "Formula-1"də yarışan ilk indoneziyalı pilotdur.

*Hazırladı: Elçin CƏFƏROV, "Azərbaycan"*